# Təhlükə ilə üz-üzə

**Namiq Babaxanov**

Rəhman və Rəhim Allahın adıyla! Bu yazı, əsasən müsəlmanları hədəfə alan və təəssüf ki, elə müsəlmanlar arasından çıxan bir ideoloji təhlükə – Vəhhabilik cərəyanı haqqında olacaq. Lakin bu ideoloji təhdid artıq yalnız İslam dünyasına yönəlməklə kifayətlənmir; o, bütün bəşəriyyətin təhlükəsizliyinə kölgə salmaqdadır.

Doğrudur, bu cərəyanla mübarizə aparanlar, əsasən sağlam düşüncəli və düzgün əqidəli müsəlmanlardır. Onlar bu ideologiyanın yayılmasına qarşı çıxır, elmi əsaslarla, maarifləndirici mübarizə aparırlar. Çünki ideologiyalarla yalnız elm və düşüncə vasitəsilə mübarizə aparıldıqda, dayanıqlı və müsbət nəticələr əldə etmək mümkündür.

Əlbəttə, bu mübarizə hər zaman yetərli olmaya bilər. Əgər kifayət qədər təsirli olsaydı, bu cərəyanın ideoloji sərhədləri bu qədər genişlənməz, təsir dairəsi bu dərəcədə artmazdı.

**Məhəmməd ibn Əbdül-Vəhhab**

Bu barədə ilk söz, təbii ki, Ərəbistan yarımadasının Nəcd bölgəsində Hənbəli məzhəbinə mənsub bir ruhani ailədə doğulmuş və özünəməxsus dini baxışları ilə tanınan Məhəmməd ibn Əbdül-Vəhhab (1703–1792) barəsindədir.

O, hələ gənc yaşlarından etibarən ortodoksal İslam düşüncəsinə qarşı çıxaraq, bəzi müsəlmanları müşrik adlandırmağa başlamış, bir müddət bu əqidəsini gizli saxlamış, daha sonra isə açıq şəkildə təbliğ etməyə başlamışdır. Məhəmməd ibn Əbdül-Vəhhab sonralar Nəcd bölgəsini tərk edərək Suriya, İraq və İran ərazilərində yaşamışdır.

Mənbəyə görə, həmin dövrdə o, "Mister Hemfer" adı ilə tanınan ingilis casusu ilə tanış olmuş və bu münasibət nəticəsində "Vəhhabilik" adlanan ideoloji cərəyanın əsaslarını formalaşdırmağa başlamışdır. (Ser Henri Hemfri “Mister Hemfrinin memuraları” kitabı) Beləliklə, 7-ci əsrdə yaranan İslam dininin ardınca, 18-ci əsrdə "əsl İslam" iddiası ilə çıxış edən Vəhhabi məzhəbi meydana gəlmişdir.

Məhəmməd ibn Əbdül-Vəhhabın dini baxışları ailəsi daxilində də ciddi narazılıqlara səbəb olmuşdur. Onun atası və xüsusilə böyük qardaşı Şeyx Süleyman ibn Əbdül-Vəhhab, bu fikirlərə qarşı çıxaraq, "Əs-Səvaiq əl-ilahiyyə fir-rəddi ələl-vəhabiyyə" adlı əsər qələmə almışdır. Lakin bütün bu etirazlara baxmayaraq, Məhəmməd ibn Əbdül-Vəhhabın ətrafında onun fikirlərini dəstəkləyən insanlar toplanmış və nəticədə bu yeni dini hərəkat formalaşmışdır.

Bildiyiniz kimi, digər dinlərdə olduğu kimi, İslamda da müxtəlif məzhəblər mövcuddur və hər birinin özünəməxsus yaranma tarixi var. Vəhhabilik də, qeyd etdiyimiz kimi, bu şəkildə meydana gəlmişdir.

## Osmanlıya ağır zərbə

Qeyd etmək lazımdır ki, vəhhabiliyin meydana çıxması Osmanlı İmperatorluğunun daxili və xarici münaqişələrlə məşğul olduğu bir dövrə təsadüf edir. Qanuni Sultan Süleymandan sonra başlayan durğunluq dövrüylə ondan sonrakı sultanların hakimiyyəti altında güclü imperatorluq yavaş-yavaş zəifləməyə doğru gedirdi. Məhəmməd ibn Əbdül-vəhhabın zamanında Osmanlı artıq uzaq Ərəbistan yarımadasını əvvəlki kimi nəzarətdə saxlaya bilmirdi.

İlkin mərhələlərdə vəhhabilik yalnız azsaylı ərəb qəbilələri arasında tərəfdar tapdı, lakin sonradan bu cərəyan Osmanlının idarə etdiyi qeyri-ərəb xəlifələrə qarşı təsirli bir vasitəyə çevrildi və getdikcə ərəb qəbilələri arasında daha geniş yayılmağa başladı. Bununla da vəhhabilik ərəblər üçün qeyri-ərəb (əcəm) hökmdarlardan qurtuluş yoluna çevrilirdi.

Beləliklə, Böyük Britaniya bu məzhəbin yaranmasına dəstək verərək Osmanlı imperatorluğuna qarşı əzəli düşmənlikdə mühüm rol oynadı. Bu, həm Osmanlıyı daxildən parçalamağa, həm də müsəlmanlar arasında ixtilaf yaratmağa xidmət edən bir hərəkat oldu.

## Çirkin niyyətlər üçün bir fürsət

Bu yolla, Məhəmməd ibn Əbdül-Vəhhabın şəxsi fikirləri, İslam dəyərləri kimi təqdim edilir. Bu əqidə daşıyıcılarının İslama yenilik gətirən əməlləri, müsəlmanlar arasında ixtilafa səbəb olur və hətta düşmənçilik səviyyəsinə çatdırır. Bu, İslam düşmənlərinin çoxdankı arzusu idi. Vəhhabilik yaranandan sonra müsəlmanlar arasında ixtilaf yeni və daha şiddətli bir mərhələyə qədəm qoyur. Beləliklə, bir dini cərəyan yaradaraq böyük hədəflərə çatmaq fürsətini təbii ki, müsəlmanlara düşmən olanlar əldən verməzdilər.

Ərəblər üçün bu məzhəbin yaranmasının əlverişli tərəfi, qeyri-ərəb rəhbərliyinə qarşı bir hərəkatın başlanğıcını qoyması idi. İlk mərhələdə ərəblər, bu məzhəbi daha çox siyasi məqsədlərlə qəbul edirdilər. Heç şübhə yoxdur ki, bu məzhəb Osmanlı İmperiyası ilə ərəblər arasındakı parçalanmada mühüm rol oynamışdır. Vəhhabilik, bugünə qədər yalnız şiəliklə düşmən münasibətində olmamış, əsasən sünni məzhəbinə, xüsusən də Hənəfi təriqətinə qarşı yönəlmişdir. Vəhhabilər, ilk üsyanlarını Osmanlıya qarşı həyata keçirmişlər. Qeyri-ərəblərin əlində olan imperiyadan ərəbləri xilas edəcək bir hərəkatın yaranması, onların çoxdankı arzusu idi. Məhəmməd ibn Əbdül-Vəhhab üçün isə bu, özünün haqq bildiyi şəxsi fikirlərini həyata keçirmək üçün bir fürsət idi.

**Dini əqidə, yoxsa siyasi alət?**

Qeyri-ərəb sultanlarına qarşı mübarizə meyillərinin gücləndiyi bir dövrdə, Osmanlı imperiyasının mövqelərinin zəifləməsindən faydalanan bəzi ərəb qəbilə başçıları, vəhhabiliyə üz tutaraq öz siyasi mövqelərini möhkəmləndirməyə çalışdılar. Bu baxımdan, Böyük Britaniyanın Osmanlı imperiyasını daxildən zəiflətmək məqsədilə Şərq ölkələrinə göndərdiyi emissarın və Məhəmməd ibn Əbdül-vəhabın birgə fəaliyyəti nəticəsində vəhhabiliyin təməli qoyuldu. Belə desək, o dövrün ingilis siyasətinin, Osmanlı imperiyasını daxildən dağıtmaq və müsəlmanların dini birliyini zəiflətmək planı müvəffəqiyyət qazandı.

Əlbəttə, vəhabiliyin formalaşmasında daxili qüvvələrin də əhəmiyyətli rolu olmuşdur. Əbdül-vəhhabın fəaliyyətinə dəstək verən daxili qüvvələr arasında nüfuzlu şəxslər də yer alırdı. Xüsusilə, Səudiyyə Ərəbistanı Krallığının hakimiyyətdə olan Səud ailəsinin əcdadları, Məhəmməd ibn Səud, oğlu Əbdül-Əziz ibn Məhəmməd, nəvəsi Səud ibn Əbdül-Əziz və onların nəslinin bu əqidənin yayılmasında mühüm rolu olmuşdur. Ali Səudun, vəhhabiliyin formalaşmasında, möhkəmlənməsində və yayılmasında xüsusi xidmətləri vardır. Ümumiyyətlə Osmanlı dövründə, vəhhabilik bu imperiyanın sərhədləri daxilində yaşayan ərəbləri bir arada toplayan bir ideoloji cərəyan oldu.

Məhəmməd ibn Əbdül-Vəhhab, Əd-Diriyyə şəhərinin nüfuzlu şəxsləri ilə, o cümlədən həmin əmirliyin əmiri və Ali Səud qəbiləsinin başçısı Məhəmməd ibn Səudla sıx əlaqələr qurdu. 1723-cü ildə hakimiyyətə gələn və Osmanlını tanımayan, ona vergi ödəməkdən imtina edən Məhəmməd ibn Səud, siyasi hakimiyyətini möhkəmləndirmək və genişləndirmək məqsədilə Məhəmməd ibn Əbdül-Vəhhabla ittifaqa girir. O, vəhhabiliyi qəbul edir və maddi cəhətdən dəstəkləyir.

1744-cü ildə baş tutan bu ittifaq nəticəsində Məhəmməd ibn Əbdül-Vəhhab öz əqidəsini geniş şəkildə yaymağa başlayır. Sonralar Osmanlı imperiyasının Əd-Dəriyə əmirliyini dağıtması və birinci Səud hakimiyyətinə son verməsinə baxmayaraq, vəhhabilik əqidəsi yayılmağa davam edir və Səud ailəsinin əqidəsində qalır. Bu əqidə, ikinci və üçüncü Səud hakimiyyətlərinin rəsmi məzhəbinə çevrilir və hələ də günümüzə qədər davam edir.

Təəssüf ki, bu cərəyan digər müsəlmanları İslam və təkallahlıqdan çıxmaqda, müşrik olmaqda ittiham edirdi. Əslində, bu, siyasi məqsədlər üçün edilirdi, çünki vəhhabilər, digər müsəlmanları "ləkələyərək", ərəblərin vəhhabilik ideologiyası altında öz mübarizələrini "həqiqət" kimi təqdim etməyə çalışırdılar. Bu cür yanaşma tarixdə də mövcud olmuşdu. Məsələn, Yezid, İmam Hüseyni qətlə yetirmək üçün onu dindən çıxmış və müsəlmanların xəlifəsinə qarşı baş qaldırmış kimi təqdim etmişdi. Odur ki, İmam Hüseyn və tərəfdarları Aşura hərəkatı boyunca öz İslama bağlılıqlarını vurğulayaraq, Yezidin kimliyini ifşa edirdilər. Beləliklə,

vəhhabilərin digər müsəlmanları müşrik adlandırmaları yeni bir tendensiya deyil, tarixdə belə nümunələr mövcuddur.

## Tarix qətliama şahidlik edir

Dini siyasi məqsədlər və şəxsi mənafelər üçün istifadə etdikdə ciddi fəsadlara yol açır. Məhəmməd ibn Əbdül-Vəhhab öz əqidəsini sübut etmək məqsədilə Qurani-Kərimdə müşriklərə aid olan ayələri müsəlmanlara şamil edir, ilahi kəlmələri öz şəxsi rəyinə əsaslanaraq təfsir edir və digər müsəlmanları kafir, müşrik və nəcis sayır. Bu kimi düşüncələr çox təəssüf ki, siyasi-ideoloji-hərbi bir cərəyan kimi formalaşır və digər müsəlmanlara qarşı düşmənçiliyə və müharibələrə yol açır.

Vəhhabilər, birinci Səud dövləti dövründə Məkkə, Mədinə, Taif, Şam, Nəcəf, Kərbəla və s. şəhərlərə hücum edərək, bu şəhərlərin günahsız müsəlman əhalisinə amansız şəkildə divan tuturlar. Bu hərəkətlər ilə onlar öz mövqelərini möhkəmləndirərək, Osmanlı qüvvələrini Ərəbistandan qovmağa çalışırlar. Nəticədə, Ərəbistan yarımadasının bir hissəsində siyasi hakimiyyət qurmağa müvəffəq olurlar.

1765-ci ildə Ali-Səud qəbiləsinin rəhbəri və birinci Səud dövlətinin (Əd-Diriyyənin) əmiri, həmçinin vəhhabilərin nəzarətində olan ərazilərin başçısı Məhəmməd ibn Səud Nəcdə 30 il hökmranlıq etdikdən sonra vəfat edir. Oğlu Əbdül-Əziz ibn Məhəmməd onun yerini alır və Əd-Diriyyənin əmiri olur. Lakin 1803-cü ildə vəhhabilərlə mübarizə aparan müsəlmanlar tərəfindən qətlə yetirilir. Əbdül-Əzizin yerinə oğlu Səud ibn Əbdül-Əziz hakimiyyətə gəlir, amma o da 1814-cü ildə ağır xəstəlikdən dünyasını dəyişir. Ondan sonra hakimiyyətə Səud ibn Əbdül-Əzizin oğlu Abdullah ibn Səud gəlir. O da, 1818-ci ildə Osmanlı tərəfindən tamamilə məğlub edilir, əmirlik dağıdılır, Abdullah ibn Səud əsir alınaraq İstanbulda edam olunur. Beləliklə, birinci Səud dövləti sona çatır, amma onun əməlləri tarixdə qalır.

1802-ci ildə vəhhabilər İraqa soxulurlar. Onlar, Yezid ibn Müaviyənin törətdiyi cinayətləri təkrarlayaraq Kərbəla şəhərini mühasirəyə alır, basqın edirlər və yerli camaata amansızlıqla divan tuturlar. Yüzlərlə günahsız insan qətlə yetirilir, İmam Hüseynin ziyarətgahı dağıdılır, qiymətli əşyalar qarət edilir və müsəlmanlarla müşriklər kimi rəftar edilir.

1803-1807-ci illərdə vəhhabilər Hicaz bölgəsinə hücum edirlər. 1803-cü ildə Taifi ələ keçirir, 1805-ci ildə Mədinəyə hücum edərək türbə və ziyarətgahları dağıdırlar. 1806-1807-ci illərdə isə Məkkəni mühasirəyə alır, Əbdül-Vəhhabın təliminə zidd olan hər şeyi məhv edirlər. Bu dövrdə heç kəs Həcc ziyarətinə gedə bilmir.

Sonrakı illərdə, 1807-1810-cu illərdə vəhhabilər Şam (Suriya) yolunu bağlayaraq karvanları qarət edirlər. Bu işğallar və cinayətlər zamanı kişiləri və kiçik yaşlı

uşaqları qətlə yetirir, qadınları isə əsir alırlar. İslam qanunlarına əsasən, kafir və müşriklərlə belə rəftar etmək icazəli deyil.

Vəhhabilərin tarix boyu törətdikləri cinayətlər bununla bitmir. Biz yalnız bir hissəsini qeyd edirik. Nəhayət, 1811-1813-cü illərdə Osmanlı sultanı II Mahmud, Misir valisi Məhəmməd Əli Paşaya vəhhabiləri susdurmağı əmr edir. Özü və oğlu Tusun Paşanın rəhbərliyi ilə vəhhabilər bütün ərazilərdən geri çəkilirlər və Səud dövləti yalnız Nəcddə, Əd-Diriyyədə məhdudlaşır.

Lakin 1818-ci ildə vəhhabilər tam süqut edirlər, birinci Səud dövləti dağılır və Osmanlı qüvvələri bütün ərazilərə hakim olur. Dövlətin süqutuna baxmayaraq, Vəhhabilər tamamilə məğlub olmurlar. Osmanlının regionda zəifləməsindən faydalanaraq, 1824-cü ildə ikinci Səud dövlətini qururlar. Yenə eyni ideologiya və əməllərlə yola davam edirlər, amma bu dəfə daxili çəkişmələr də baş verir və nəhayət, 1891-ci ildə Rəşidilər dövləti vəhhabiləri süqut etdirir.

Bir müddət sonra, Rəşidilər dövləti də Osmanlının zəifləməsindən təsirlənərək zəifləmiş olur və 1902-ci ildə vəhhabilər yenidən toparlanırlar. Nəticədə, bu günə qədər mövcud olan üçüncü Səud dövləti bu dəfə Nəcd bölgəsinin digər mühüm məntəqəsi olan Ər-Riyadda qurulur. Yenə eyni əqidə və əməllər davam edir. 1924-1925-ci illərdə Mədinədəki Bəqi qəbristanlığında çoxlu sayda tarixi qəbir və məscidlər dağıdılır. Bunlara "Beytul-ehzan" adlanan yerdəki "Fatimə" məscidi, dörd Əhli-beyt imamının qəbrüstü abidələri, Məkkədə isə Peyğəmbərin doğulduğu ev, Xədicəyi Kubranın evi və Bəni Haşim qəbristanlığı və bir çoc digər tarixi abidələr də daxildir.

**Vəhəbbiliyin ideoloji əsasları puçdur**

Məhəmməd ibn Əbdül-Vəhhabın düşüncələrində və ümumiyyətlə Vəhəbbiliyin ideoloji əsaslarında, 13-14-cü əsrlərdə yaşamış və "İbn Teymiyyə" adı ilə məşhur olan Təqiyyəddin Əhməd ibn Əbdül-Həlim ibn Teymiyyə Hərrani (1263-1328) əsərlərinin izi açıq-aydın görünür. Bu səbəbdən demək olar ki, Vəhhabiliyin yaranmasında İbn Teymiyyənin fikirlərinin böyük rolu vardır.

Vəhhabilər, onun əqidələrini qəbul edərək, Qurandan bəzi ayələrin məcazi mənalarını zahiri və doğru mənalar kimi qəbul edirlər. Bu yanaşma ilə Allah-Təalanın əli, ayağı, gözü, qulağı, sifəti və s. kimi üzvləri olduğuna inanırlar. Lakin bu, Allaha cisim vermək və şirk etməkdir. İbn Teymiyyə, hətta Allahın ərşin üstündə oturduğunu və oradan yer üzünə endiyini iddia edir. Lakin bütün İslam alimləri onun bu fikirlərinin İslam dinindən kənar və şirk olduğunu vurğulamışlar.

İbn Teymiyyədən bəhrələnən Məhəmməd ibn Əbdül-Vəhhab, Peyğəmbər və imamların qəbirlərinin ziyarətini haram elan etmişdir. Bu fətva, tarixdə Vəhəbbilərin "tovhid bayrağı" altında bir çox qətliamlar törətməsinə səbəb

olmuşdur. Halbuki, Peyğəmbər özü Bəqi qəbristanlığına dəfələrlə gedərək orada dəfn olunan şəhidləri ziyarət etmişdir. Peyğəmbərin sünnəsində qəbirləri ziyarət etmək savablı əməllərdən biri sayılır, amma Vəhhabilər bunu şirk və haram hesab edirlər.

İbn Teymiyyənin bu cür fikirlərə düşməsinin səbəbi, bəzi hədis və rəvayətləri düzgün anlamaması, yalnız Qurani-Kərimin zahiri mənasına inanması və Əhli-Beyt hədisləri kimi böyük elm mənbələrini qəbul etməməsidir.

**Niyə "Məhəmmədilik" deyil, "Vəhhabilik"?**

Bir çox insanın ağlında belə bir sual yaranır: Görəsən, bu cərəyan niyə onun banisi Məhəmməd ibn Əbdül-Vəhhabın öz adı ilə "Məhəmmədiyyə" deyil, daha çox atasının adıyla "Vəhhabilik" adlandırılıb? Cavab sadədir: Bu adla onları digər müsəlmanlar tanıtdırıb. Yəni, bu cərəyana tabe olanlar, özlərini Məhəmməd peyğəmbərin adı ilə əlaqələndirərək, bu ad vasitəsilə şərikçilikdən sui-istifadə etməsinlər deyə, müsəlmanlar onların əqidəsini "Məhəmmədilik" deyil, "Vəhhabilik" olaraq adlandırıblar. Onlar isə öz cərəyanlarını "Sələfilik" adlandırmağa üstünlük verirlər.

**Vəhhabiliyin müstəqil fiqh məktəbi yoxdur**

Vəhhabiliyin özünün müstəqil və tam fiqh (İslam hüququ) məktəbi yoxdur. Onlar əsasən dörd sünni fiqh məzhəbindən biri olan "Hənbəli" fiqhini qəbul edir və buna əməl edirlər. Əlbəttə, vəhhabi alimlərinin özlərinə məxsus fiqh nəzəriyyələri və fitvaları mövcuddur, lakin bu nəzəriyyələr yalnız konkret mövzulara aiddir və ümumi bir fiqh sisteminə sahib deyillər.

İslamda ümumiyyətlə beş fiqh məktəbi mövcuddur, hər biri fərqli məzhəblərə mənsubdur: Hənəfi fiqhi; Maliki fiqhi; Şafei fiqhi; Hənbəli fiqhi (bunlar sünnilərə aiddir) və Cəfəri fiqhi (şiələrə aiddir).

Vəhhabiliyə və ya onların özlərinin dediyi adıyla "Sələfilik"ə gəlincə, qeyd etdiyimiz kimi fiqh mövcuddur, amma bu, müstəqil və tam bir fiqh məktəbi deyildir. Onlar əsasən Hənbəli fiqhinə tabe olurlar.

Ümumiyyətlə, İslamda bu günə qədər mövcud olan bəzi digər məzhəblər də müstəqil fiqhə sahib deyil. Məsələn, əhli sünnədən olan Vəhhabiliyi (Sələfilik), İbadiliyi (İbazilik) buna misaldır. Şiə məzhəblərindən Zeydiliyi və İsmaililiyi müstəqil fiqh məktəbləri kimi qəbul etmək mümkün deyil, bunlar əsasən Cəfəri fiqhindən faydalanırlar. Yalnız Cəfəri fiqhi, tam və müstəqil bir fiqh olaraq, şiə

dünyasında geniş şəkildə tətbiq edilir. Ələvilikdə isə fiqh ümumiyyətlə mövcud deyil.

Vəhhabiliyin yaranışından bu yana müstəqil fiqh məktəbinin olmaması səbəbindən bu cərəyan tam bir məzhəb kimi qəbul edilə bilməz və bir dini cərəyan olaraq qalmaqdadır. İslamda yalnəz fiqh məktəbi olanlar məzhəb kimi qəbul edilir və İslamın əsas prinsiplərini tərənnüm edir. Eyni vəziyyət bu gün mövcud olan yəhudi və xristian səmavi dinlərində də müşahidə olunur.

**Təsadüf və ya qanunauyğunluq**

Bir digər düşündürücü məsələ, Vəhhabiliklə Sionizmin münasibətləridir. Nə təsadüf ya qanunauyğunluqdursa, bu iki cərəyanın əlaqəsi heç vaxt gərgin olmamışdır. Müsəlmanlara və ərəblərə qarşı davamlı zülm edən sionistlər, heç zaman vəhhabilərlə münaqişəyə girmirlər. Zamanında qeyri-ərəb Osmanlı hakimiyyətinə qarşı böyük addımlar atan və zəifləməsində mühüm rol oynayan Səud dövləti, bu gün isə müsəlmanlara və ərəblərə qarşı bir əsrə yaxın davam edən zülmə göz yummaqdadır. Vəhhabilik yolunu izləməyən müsəlmanları düşmən kimi qəbul edən vəhhabilər, sionistləri heç vaxt özlərinə düşmən saymazlar. Rəsmi olaraq, vəhabilərin hakim olduğu Səudiyyə Ərəbistanı ilə sionist İsrail arasında daim normal münasibətlər mövcuddur. Bu mövzunu daha da uzatmağa ehtiyac görmürük, sadəcə olaraq qeyd edib keçiririk, çünki həqiqət açıq-aydın ortadadır.

**İslam qaynaqları – hədislər Vəhhabiliyi ifşa edir**

Vəhhabilik, digər sünni məzhəbləri kimi, dini əsaslarını həm də hədis kitablarından alır. Ümumiyyətlə, yalnız şiə məzhəbinin Peyğəmbərdən və on iki məsum imamlardan gələn öz hədis qaynaqları mövcuddur. Vəhhabilər isə hədisçi Buxarinin və Müslimin “Səhih” əsərlərini ("Səhih-Buxari", "Səhih-Müslim") digər mənbə kitablar ilə birgə Qurani-Kərimdən sonra ən etibarlı mənbələr olaraq qəbul edirlər. Beləliklə, həmin kitabların birindən gətirəcəyimiz iki hədis, bu məzhəbin həqiqi simasını bir daha ortaya qoyacaq. Məlumdur ki, vəhhabilik Ərəbistanın Nəcd vilayətində meydana gəlmişdir və həm Əd-Diriyyə, həm də Ər-Riyad bu vilayətin şəhərləridir. İslam Peyğəmbərinin zamanından etibarən həmin vilayətdə insanlar yaşamış və Məhəmməd ibn Əbdül-Vəhhab da məhz bu bölgədən çıxmışdır.

**Birinci Hədis:**

Səhih-Buxari (Beyrut çapı), Fitən kitabı, fəsil 16, hədis 7094-də Abdullah ibn Ömərdən belə rəvayət olunur: Bir gün İslam Peyğəmbəri Həzrət Məhəmməd belə dua etdi: "Ey Allah! Şamı və Yəməni bizim üçün bərəkətli et!" Bu dua üç dəfə təkrarlanır. Peyğəmbərin ətrafındakılardan bəziləri ona belə dedilər: "Ya Rəsuləllah! Nəcdi də dua et." Peyğəmbər isə yenə eyni duanı təkrarlayaraq dedi: "Ey Allah! Şamı və Yəməni bizim üçün bərəkətli et!" Ətrafdakıların təkrar müraciətlərinə cavab olaraq Peyğəmbər yenə eyni duanı etdi. Peyğəmbərdən "niyə Nəcdi dua etmirsən" soruşanda isə O buyurdu: "Nəcdə zəlzələlər, fitnələr və şeytanın çıxacağı yer olacaq." Bütün tarixçilər və mütəfəkkirlər bilir ki, Nəcdin tarixində Məhəmməd ibn Əbdül-Vəhhab və vəhhabilikdən başqa heç bir diqqətəlayiq hadisə yoxdur. Buna görə də, hədisdə qeyd olunan "Nəcd"ə işarə edilən şəxslər və əməllər açıq şəkildə ifşa olunur.

**İkinci Hədis:**

Növbəti hədis də Səhih-Buxaridəndir (Beyrut çapı), Tövhid kitabı, fəsil 57, hədis 7562-də Əbu Səid Xidridən rəvayət olunur: Peyğəmbər buyurmuşdur: "Məşriqdən bir qrup insanlar çıxacaq ki, onlar Qur'anı oxuyacaqlar, amma ona əməl etməyəcəklər. Onlar, yay kamandan çıxdığı kimi, dindən çıxacaqlar. Amma yay kamana geri dönmədiyi kimi, onlar da dinə qayıtmayacaqlar." Soruşdular: "Ya Rəsuləllah! Onların əlamətləri nə olacaq?" Peyğəmbər cavab verdi: "Onlar ya saqqallarını qırxacaq, ya da uzadacaqlar." Bu hədisin şərhini oxucuların özlərinə buraxırıq, çünki bu cür insanların kimliyi cəmiyyətdə yaxşı məlumdur.

**Ağılasığmaz iddialar**

Vəhhabilər, Məhəmməd ibn Əbdül-Vəhhabın fikirlərini əsas götürərək, Peyğəmbər dövründə və ondan sonra – səhabə və tabein zamanında – Ərəbistan yarımadasında mövcud olmuş milli ənənələri dini ənənə kimi qəbul edir, orta əsrlərə aid ərəb mədəniyyəti və məişətini din kimi təqdim edirlər.

Vəhhabilik bayrağı altında onlar bu mədəniyyət və adət-ənənələri dirçəltməyə çalışır, İslamın ilkin çağlarında ərəb qəbilələrinə xas olan geyim tərzini, məişət qaydalarını və digər xüsusiyyətləri "Peyğəmbər sünnəsi" adı ilə dini rəngə boyayırlar. Nəticədə, Allah-Təalanın nazil etdiyi Qurani-Kərimdəki gerçək və mütərəqqi dəyərlər kölgədə qalır, bunun əvəzində mürtəce düşüncələrə əsaslanan fundamentalizm və ekstremizm meydana çıxır.

Vəhhabilər Quran ayələrini deyil, yeddinci əsrə aid ərəb mədəniyyətini "sünnə" və "dini dəyər" kimi təqdim edirlər. Onlar doqmatizmə qapılaraq sol əllə yeməyi,

topuqdan aşağı şalvar geyinməyi, qəbir ziyarətini, şəkil çəkdirməyi və daha bir çox məsələləri haram sayır, bununla da İslam dinini sönük və mürtəce bir şəkildə təhrif edirlər.

Vəhhabilərin ağılasığmaz iddiaları bununla bitmir. Onlar öz əqidələrini qəbul etməyənləri “müşrik” adlandırır və İslamı vəhşilik kimi göstərərək bəşəriyyətə yanlış şəkildə təqdim edirlər.

**Vəhhabiliyə qeyri-müsəlmanların baxışı**

Bütün bu neqativ hallar aydın və aşkar görünsə də, heç kəs bu cərəyanı İslam və müsəlmanlardan kənar hesab etmir, çünki vəhhabilər müsəlmandırlar, hətta müstəqil fiqhi olmasa da belə Sələfilik cərəyanı İslam məzhəblərindən biri sayılır. Amma müsəlman olsalar da İslam və müsəlmanları gözdən salan müsəlmanlardır. Qeyri-müsəlmanlar üçün isə onlar hətta İslam nümunəsidir. Müsəlmanların hansı məzhəbə mənsub olmasından asılı olmayaraq dünya onları İslam, Quran və Peyğəmbər təmsilçisi kimi tanıyır, etdikləri bütün əməlləri isə İslam Ümmətinin adına yazılır. Bu səbəbdən də vəhhabilərin üzündən İslam bəzən gerilik kimi dəyərləndirilir.

Vəhhabi cərəyanı bəzən müsəlmanları terrorçu kimi tanıdır, çünki bir çox terror təşkilatlarının üzvləri bu etiqada mənsub olmuşlar. Lakin əslində, terrorçunun vətəni, milləti və dini yoxdur. Dünyada xristian terrorçu təşkilatları və törətdikləri cinayətlərin sayı da kifayət qədər çoxdur, amma buna görə xristianları qınamaq olmaz. Necə ki, sionistlərin törətdiyi cinayətlərə görə yəhudiləri qınamaq doğru deyil. Axı, günahsız insan qanı tökənin hansı dində olmasının nə fərqi var ki? O insanlıq düşmənidir, belələri cinayətləri ilə insanlıqdan çıxıblar, din isə insanlıqdan sonrakı mərhələyə aiddir.

Amma çox təəssüf ki, Vəhhabiliyin ən böyük zərbələrindən biri məhz İslamı və müsəlmanları gözdən salmaq olub. Dinimizi irtica, müsəlmanlarımızı isə bəzən bəşəriyyətin düşməni - terrorçu kimi tanıdıblar. Halbuki, İslamda Peyğəmbərdən sonra ikinci müsəlman və dördüncü raşidi xəlifə İmam Əli, terror nəticəsində şəhid olub, ondan əvvəl isə üçüncü raşidi xəlifə Osman ibn Əfvan da terror qurbanı olub. İslam dini, döyüş və müharibə xaricində, heç yerdə və heç vaxt silah işlətməyə icazə vermir.

Çox təəssüf ki, bəzən dünya ictimaiyyəti bu faktları bilə-bilə vəhhabilərin etdiklərini İslam və müsəlmanlar adına yazır. Hətta inkişaf etmiş dünyaya bəzən belələri sərf edir...

**Gerçəklər gizlədilməməlidir**

Doğru olan  budur ki, faktları ortaya qoymaq, gerçəkləri olduğu kimi demək lazımdır. Məsələ burasındadır ki, bəzən vəhhabilər haqqında şişirdilmiş rəqəmlər göstərilir və bu da sanki kimlərəsə qorxu, kimlərəsə isə arxayınçılıq yaradır. Əslində, Vəhhabilik nə qədər təhlükəli ideologiya olsa da, geniş yayılmış bir məzhəb deyil. Sünni məzhəbləri arasında daha çox Hənəfilik və Malikilik yayılıb və ardıcılları çoxdur. Şiə məzhəbləri arasında isə Cəfərilik daha çox tərəfdara malikdir.

Ümumi statistikaya nəzər salsaq, təqribən 8 milyard dünya əhalisindən 2 milyarda yaxın müsəlman var və bunların əksəriyyəti sünni məzhəbindədir, əsasən də Hənəfi məzhəbində. Təqribən 500 milyon yaxın şiə məzhəbində olan müsəlman varsa, onlardan böyük əksəriyyəti, yəni 400 milyona yaxın, Cəfəri məzhəbinə aiddir.

Bu statistikaya görə, Sələfi məzhəbi Şafei və Hənbəli məzhəblərindən də az tərəfdara sahibdir. Sadəcə, İslamın ilk zühur etdiyi ərazilərə aid olan, çox varlı Səudiyyə Ərəbistanı Krallığının rəsmi dini yolu Sələfilik olduğu üçün bu məzhəb belə geniş və böyük görünür. Əslində isə, 30-35 milyonluq Səudiyyədə 6-7 milyon şiə Cəfəri məzhəbinin ardıcılı yaşayır. Dünya üzrə Sələfi məzhəbinin təqribən 40-50 milyonluq etiqad daşıyıcısı olduğu bildirilir.

Vəhhabilik, xristianlıqdakı Protestantlıqla oxşar siyasi xətti izlədiyi iddia olunsa da, uğur baxımından Protestantizm qədər müvəffəq olmayıb.

**Vəhhabilik ənənəvi inanca qarşı**

Vəhhabilik, bir çox müsəlman ölkələrində, xüsusən də ərəb dünyasında yayılmışdır, amma hər yerdə keçmişə, tarixə və xalqların ənənəvi inancına qarşı çıxır. Məsələn elə Azərbaycanda, xalqın əksəriyyəti Peyğəmbər və onun məsum Əhli-beytinə böyük sevgi ilə tanınır. Ümumiyyətlə, türkdilli xalqlar arasında, əsasən azərbaycanlılar, Əhli-beyt yolunun davamçılarıdır. Dünyada ən böyük Əhli-beyt mərkəzlərinin təşkilatçıları əsasən azərbaycanlılardır.Vəhhabilik, azərbaycanlılar üçün öz kökünə, ənənələrinə və milli-mənəvi dəyərlərinə tamamilə zidd olan bir ideologiyadır.

Ümumiyyətlə, müsəlmanlar məzhəb ayrılığından əl çəkməlidir və yəni hər kəs hansı məzhəbdədirsə, ona da əməl etməli və bu normal sayılmalıdır, məzhəb ayrılığı kimi qəbul edilməməlidir. Problem onda yaranır ki, bir məzhəbin davamçıları, digər məzhəbin ardıcıllarını öz məzhəbinə çəkmək istəyir və bunun üçün müxtəlif yollardan istifadə edirlər. Bu, böyük bir yanlışdır və yolverilməzdir. Məzhəblər bir-birini elmi tənqid edə, həqiqəti ortaya çıxarmaq üçün akademik müzakirələr keçirə bilərlər, amma bu yalnız elm əhlinin arasında olmalıdır. Sadə insanlar öz ənənəvi məzhəbinə əməl etməli və ixtilaf yaratmamalıdırlar.

Hal-hazırda dünyada təxminən on İslam məzhəbi mövcuddur və Sələfilik (Vəhhabilik) hər nə qədər bir dini cərəyan olaraq qəbul edilsə də, bunlardan biri sayılır. Bütün dinlərdə parçalanma və məzhəbçilik mövcuddur; bütpərəstlikdən tutmuş xristianlığa qədər olan inanclar bir çox müxtəlif qol və cərəyanlara ayrılmışdır. Lakin ən böyük problem müsəlmanlar arasında yaranır, nəticədə isə ixtilaf və düşmənçilik baş qaldırır. Təəssüf ki, Vəhhabilik ənənəvi inanca qarşı çıxdığı üçün, əsasən bu cərəyan, müsəlmanlar arasında ixtilaf və qarşıdurma yaradır.

**Çıxış yolu var**

Unutmaq olmaz ki, mötəbər kitablarda qeyd olunan səhih rəvayətlərə əsasən, İslam Peyğəmbəri özündən sonra müsəlmanlar arasında ixtilafın yaranacağını və onların məzhəblərə və təriqətlərə bölünəcəyini xəbər vermişdi. Lakin o Həzrət qeyd etmişdi ki, bu məzhəb və təriqətlərdən yalnız biri haqq olacaq və onun ardınca gedənlər nicat tapacaqlar. Nicat tapanlar isə sözsüz ki, Quran və Peyğəmbər sünnəsinə sözdə deyil əməldə düzgün riayət edənlərdir. Əslində, məzhəbsiz İslam yoxdur və məzhəbsiz İslam iddiasında olanlar özləri yeni bir məzhəb yaradırlar. Bu məzhəblərin əksəriyyəti isə "əsl İslam" və ya "məzhəbsiz İslam" adı altında formalaşıblar. Beləliklə, “məzhəbsiz İslam” iddiaları, çox zaman əslində yeni bir məzhəb və ya təriqət yaratmaq məqsədi güdür.

Amma hədislərdə gələn bu nicat tapan məzhəb və ya təriqət hansıdır? Bu sual, İslam alimlərinin elmi müzakirələri ilə aydınlaşa bilər; yəni həqiqəti elmi yolla tapmaq mümkündür. Mövcud vəziyyətdə isə ən düzgün yol, məzhəbçilik mübahisələrinə son qoymaq, heç kəsi məzhəbindən döndərməmək, yəni sektaçılıqla məşğul olmamaqdır. Bunun əvəzinə, hamının qəbul etdiyi ümumi İslam prinsiplərini rəhbər tutaraq, sırf elmi-dini araşdırmalar və müzakirələrə üstünlük verərək həqiqəti ortaya çıxarmaq lazımdır.

Xalqın dini savadsızlığından, ideoloji boşluqdan və mənəvi ehtiyacdan istifadə edərək onları aldatmaq, ənənəvi yolundan, keçmişindən döndərmək və maddi böhran içində olan insanları hər hansı maddiyyatla aldatmaq, dinindən və məzhəbindən döndərmək – bütün bunlar ən azı müsəlmanlar arasında ixtilaf yaratmaqdır və bu çox təhlükəlidir. Məhz belə anlarda biz təhlükə ilə üz-üzə qalırıq.

Müsəlmanların birləşəcək nöqtələri, ayrılıq nöqtələrindən qat-qat çoxdur. Buna görə də müsəlmanlar ixtilaflı məsələləri gündəmə gətirməməli, harada birləşə bilirlərsə, orada birləşməlidirlər. Vəhdət yolları çoxdur, onlardan biri də beynəlxalq təcrübədir.

Beynəlxalq təcrübə bu məsələdə bir çıxış yolu təklif edir və bunun çox effektli olduğunu xarici ölkələrdə görürük. Bir çox dövlətlər, missioner təşkilatlarla və

sektaçılığa qarşı mübarizədə ənənəvi məzhəbləri gücləndirməklə mübarizə aparırlar. Bu isə çox müsbət təsir göstərir, missioner hücumlarının və qeyri-ənənəvi ideoloji təbliğatların qarşısını alır. Ümid edirik ki, bütün ölkələr bu beynəlxalq təcrübədən faydalanacaq. **Vəssalam!**